# Qalìblər mükafatlandırıldı



Aprelin 15-də M.F.Axundov adına Milli Kitabxanada Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Mədəniyyət" qəzeti tərəfindən keçirilmiş "Mədəniyyət mövzusunda ən yaxşı jurnalist işi" müsabiqəsi qaliblərinin mükafatlandırılma mərasimi oldu. Tədbirdə çıxış edən mədəniyyət və turizm naziri Əbulfəs Qarayev nazirliyin fəaliyyətinin mətbuat üçün həmişə açıq olduğunu vurğuladı: "Bu gün mədəni həyatımızda baş verənlərin cəmiyyət tərəfindən maraqla qarşılandığı, xalqımızın hər şeydən məlumatlı olduğu sevindirici haldır. Cəmiyyətin məlumatlandırılması işində mətbuat, jurnalistlər əvəzsiz rol oynayır. Bu sırada mədəniyyət mövzusu daha maraqla qarşılanan, dərindən araşdırılan bir sahədir. Mən buna sevinir və mədəniyyətimizi işıqlandıran müsabiqə qaliblərini təbrik edirəm."

Daha sonra çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov müxtəlif sahələrdə belə musabiqələrin keçirilməsinin vacibliyindən söz açdı: "Azərbaycan bu gün inkişaf edir. İnsanlar cəmiyyətdə cərəyan edən prosesləri maraqla izləyir. Bu məsuliyyətli işi - cəmiyytəin məlumatlandırılmasını Azərbaycan jurnalistikası həyata keçirir. Mən istərdim ki, başqa nazirliklər də Mədəniyyət və Turizm Nazirliyi kimi jurnalistlər arasında belə müsabiqələr keçirsin."

Qeyd edək ki, ənənə halını almış bu müsabiqənin məqsədi respublikanın kütləvi informasiya vasitələrində mədəniyyət mövzusunun geniş və yüksək peşəkarlıqla işıqlandırılmasına, mədəni sərvətlərin yeni forma və üslublarla əks etdirilməsinə nail olmaq üçün ölkə jurnalistlərini bu işə daha məqsədyönlü cəlb etməkdən ibarətdir.

Ötən ilin ikinci yarısından start verilmiş müsabiqəyə respublikanın müxtəlif televiziya, radio, qəzet və jurnallarından 120-ə yaxın iş təqdim olunmuşdur. Tanınmış yazıçı və jurnalistlərdən ibarət münsiflər heyətinin yekdil rəyi ilə nominasiyalar üzrə qalib adını aşağıdakı jurnalistlər qazanmışlar.

**Qəzet və jurnallar üzrə:**

I yer: R.Hüseynzadə ("Qafqaz plus" jurnalı) və S.Mürvətqızı ("525-ci qəzet"), II yer: H.Nizamiqızı ("Mədəniyyət" qəzeti) və E.Qasımova ("Füyuzat" jurnalı), III yer: C.Səlimqızı ("Mərkəz" qəzeti) və T.Məhərrəmova ("Kaspi" qəzeti).

**Televiziya və radiolar üzrə:**

D.Hacıyeva (İctimai Televiziya) I yer , R. Ələkbərov ("Xəzər" TV) və V.Məmmədov ("Kəpəz" televiziyası) II yer, Əli Əlioğlu (Azərbaycan radiosu) III yer.

Tədbirdə Mədəniyyət və Turizm Nazirliyinin əmakdaşları, ziyalılar, mətbuat işçiləri iştirak etmişlər.

**Aynurə ƏLİYEVA**